

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 12 (21.422)

20 yanvar 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyi ləğv edilsin.
2. Müəyyən edilsin ki, Naxçıvan Muxtar Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin vəzifə və funksiyaları Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilir.
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 yanvar 2016-cı il*

## Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin adının dəyişdirilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi adlandırılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 yanvar 2016-cı il*

## Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin ildönümü qeyd olunmuşdur





*Yanvarın 18-də Azərbaycan Respublikasının İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir.*

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş konsulu Əli Əlizadə çıxış edərək 20 Yanvar faciəsinin hər il Azərbaycan xalqı tərəfindən qürur hissi ilə yad edildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, erməni əsilli xüsusi təyinatlılardan təşkil olunmuş sovet ordusu tərəfindən amansızcasına törədilmiş 20 Yanvar faciəsi Azərbaycana qarşı aparılan işğalçı siyasətin davamı olmaqla yanaşı, həm də xalqımızın müstəqillik arzularını boğmaq məqsədinə xidmət etmişdir. Sovet imperiyası və Azərbaycanın ovaxtkı rəhbərliyi 20 Yanvar hadisələrinin gerçək miqyasının və mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasının qarşısını almağa çalışmışlar. Lakin bütün təzyiqlərə baxmayaraq, xalqımızın ümummilli lideri Heydər Əliyev həlo o dövrdə imperiya mərkəzində bəyanatla çıxış edərək hadisəni törədənlərin ifşa olunmasını və günahkarların cəzalandırılmasını tələb etmişdir. Ulu öndər Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə, eləcə də ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinə siyasi qiymət vermişdir.

Mərasimdə 20 Yanvar hadisələrindən bəhs edən film nümayiş etdirilmiş, hazırlanmış fotostendlərə baxış olmuş, iştirakçılara əyani vəsaitlər paylanmış, ehsan süfrəsi açılmışdır.

Anım tədbirində İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, Şərqi Azərbaycan Vilayətinin rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu və konsulluğun əməkdaşları, kütləvi informasiya vasitələri, Təbrizdə yaşayan Azərbaycan vətəndaşları və ictimaiyyət nümayəndələri iştirak etmişlər.

**"Şərq qapısı"**

## Xatirə Muzeyi ilə məktəblər arasında 20 Yanvar faciəsinə həsr olunmuş interaktiv dərs aparılıb

*Yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbləri ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında interaktiv dərs aparılıb.*





Naxçıvan şəhər 11 nömrəli tam orta məktəb

20 Yanvar faciəsinə həsr olunmuş interaktiv dərsdə muzeyin direktor əvəzi Aynurə Məhərrəmova bildirib ki, muzeydə 2 mindən çox eksponat var və onlardan 400-ə yaxını nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilir. Muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi bura gələnlərin, xüsusilə gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına imkan verir.

Qeyd olunub ki, Xatirə Muzeyi azərbaycanlılara qarşı 1905-1907-ci, 1918-1920-ci illərdə baş verən kütləvi soyqırımı aktlarını, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyasını, 1990-cı il 20 Yanvar, 1992-ci il Xocalı faciələrini özündə əks etdirən eksponatlarla zəngindir. Muzeydə ermənilərin Bakıda, Şamaxıda, Qarabağda, Naxçıvanda və digər bölgələrimizdə törətdikləri vəhşilikləri əks etdirən sənədlər, şəkillər, hadisələri tarixi faktlarla oxuculara çatdıran qiymətli kitablar vardır.

Qəhrəmanlıq və qürur tariximiz olan 20 Yanvar faciəsi barədə danışan Aynurə Məhərrəmova deyib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirdi. Azərbaycanı birdəfəlik sovet imperiyasının buxovunda saxlamaq və sovet rejiminin hegemonluğunu həla uzun müddət davam etdirmək məqsədilə Bakıya ordu yeridildi, misli görünməmiş qətliam törədildi.



Culfa rayon Xanəgah kənd tam orta məktəbi



Babək qəsəbə 1 nömrəli tam orta məktəb

Diqqətə çatdırılıb ki, xalqımıza qarşı törədilən bu cinayəti ilk dəfə ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində mətbuat konfransı keçirərək insanlığa zidd aksiya kimi pisləyib. Əsl vətəndaşlıq və ümummilli mübarizəyə çağırış məqamı olan bu addım Azərbaycan xalqının milli azadlıq uğrunda apardığı mübarizədə əsas stimul olub. 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Vurğulanıb ki, 20 Yanvar faciəsi ərəfəsində Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə də erməni silahlılarının işğalçı hücumları olub. 1990-cı il yanvarın 15-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal edilib, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlayıb. Xatirə Muzeyində Bakıda və Naxçıvanda baş verən həmin hadisələri əks etdirən çoxsaylı eksponatlar vardır. Həmçinin həmin hadisələr zamanı şəhidlik zirvəsinə ucalan Vətən oğullarının fotoşəkilləri, şəxsi əşyaları da nümayiş etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib.

2014-cü il iyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin distant təhsilin muxtar respublikada tətbiqi üçün müvafiq qurumlara müxtəlif tapşırıqlar verməsi, tapşırıqların icrasının diqqət mərkəzində saxlanılması bu sahədə böyük uğurlar qazanılmasına imkan yaradıb. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi server qurulub, ümumtəhsil məktəbləri və muzeylər bu sistemə qoşulub. Həmin sistemdən interaktiv dərslərin, müəllim-şagird dialoqunun, mühazirələrin onlayn rejimdə təşkilində, seminarların keçirilməsində istifadə olunur.

**Rauf ƏLİYEV**



# 20 Yanvar faciəsindən 26 il ötür



## 20 Yanvar xalqımızın qəhrəmanlıq salnaməsidir

***20 Yanvar faciəsinin törədilməsindən 26 il ötür. Bu faciə milli ideallar uğrunda mübarizə aparan soydaşlarımızın hər cür məhrumiyyətlərə sinə gərmək əzminin bariz ifadəsi, xalqımızın tarixinə yazılan şanlı bir səhifədir. Elə bir səhifə ki, üstündən neçə illər keçsə belə, bizə milli ideallar uğrunda mübarizənin haqq səsi olduğunu xatırladır.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı kütləvi qırğın törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyi ilə yaşayan xalqın iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misligörünməmiş qəddarlıq etsə də, istəyinə nail ola, milli qürurumuzu qıra bilmədi.

Həmin gecə Azərbaycanda günahsız insanların güllələnməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin xüsusi təyinatlıları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu, Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü, suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Ozamankı SSRİ rəhbəri Mixail Qorbaçov başda olmaqla sovet imperiyasının rəhbərliyi Bakıda "erməni kartı"ndan məharətlə istifadə etdi. Guya Bakıya qoşun onları, hərbi qulluqçuların ailələrini qorumaq, "millətçi ekstremistlər" tərəfindən hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə bu, açıq riyakarlıq, imperiyanın növbəti qəddarlığını ört-basdır etmək üçün qabaqcadan hazırlanmış iftiralar və böhtanlar idi.

Bununla bağlı 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzalanmışdı. Həmin fərmana əsasən, M.Qorbaçovun göstərişi və Azərbaycanın səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridilmişdi. Ölkəni informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün müxtəlif vasitələrə əl atılmışdır. SSRİ DTK-sının "Alfa" qrupu yanvarın 19-da respublika televiziyasının enerji blokunu partlatmış, qəzet və jurnalların nəşrinə qadağa qoyulmuşdu. 20 Yanvar faciəsi zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir.

Əməliyyat zamanı hərbçilər tərəfindən insanlar öldürülür, yaşayış evləri atəşə tutulur, təcili yardım maşınları, yol kənarında dayanan avtomobillər tankların altına salınıb əzilir, yaralılara yardım göstərən tibb işçiləri güllələnirdi. Azərbaycanın paytaxtına yeridilən qoşun dəstələrinin tərkibində ermənilər də var idi. Onlar cinayətkar babalarının azərbaycanlılara qarşı törətdikləri 1918-ci il vəhşiliklərini təkrar edirdilər.

Yanvarın 20-də Bakıda törədilmiş dəhşətli qırğın xəbəri dünyanın ən ucqar nöqtələrini dolaşmaqda idi. Moskvada dərc olunan, bütün müttəfiq respublikalara göndərilən "Pravda" qəzeti 22 yanvar tarixli nömrəsində əsl həqiqətləri təkzib edir və yazırdı: *"Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır..."*

Fövqəladə vəziyyətin ən ciddi şəkildə tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Bakıdakı matəm mərasimində bir milyondan çox insan iştirak etdi. Bu, Azərbaycan xalqının azadlıq, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə səsi, mərkəzin qanlı əməllərinə qarşı etirazı idi.

Bu qanlı terror aktına – 20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Ulu öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək mətbuat konfransı keçirmiş, bu cinayəti pisləmiş, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi kəskin ittiham etmişdi. Görkəmli dövlət xadimi Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırmış və aksiyanı törədənlərin məsuliyyətə cəlb edilməsini qətiyyətlə tələb edərək demişdi: ***"Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".***

Unutmayaq ki, SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda ölkəni və onun başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ancaq ulu öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söyləmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etmişdir. Xalqımızın böyük oğlunun bu bəyanatı bütün dünyada geniş əks-səda doğurmuşdur. Ümummilli liderimizin aydın mövqeyi o dövrün siyasi təlatümlərindən çaşqın vəziyyətə düşən milyonlarla insan üçün bir istiqamətə çevrilmişdir.

Dahi rəhbər Heydər Əliyev Azərbaycan xalqının ən çətin anında Moskvadan doğma Vətəninə qayıdanda Azərbaycan çox ağır günlərini yaşayırdı. Respublikamız parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Görkəmli dövlət xadimi Heydər Əliyev Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Böyük siyasətçinin öz xalqına olan sevgisi, xalqın da ümummilli liderimizə inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

20 Yanvar faciəsinə qədər artıq Naxçıvanın Ermənistanla sərhədində ermənilər rus qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçmişdilər. Bakıda və Azərbaycanın digər bölgələrində sovet ordusunun törətdiyi qanlı cinayətlərlə Naxçıvana erməni hücumunun zaman etibarı ilə üst-üstə düşməsi hadisələrin eyni mərkəzdən idarə olunduğunu sübut edirdi. Ermənilərin muxtar respublikaya ilk mütəşəkkil hücumu 1990-cı il yanvarın 18-dən 25-dək Sədərək kəndi istiqamətində olmuşdur. Heç kimdən kömək görməyən, blokadaya alınmış Naxçıvan əhalisi adamlarda qalan ov tüfəngləri ilə düşmənlə mübarizə aparmış, muxtar respublikanı işğal olunmaq təhlükəsindən qoruyub saxlaya bilmişdir. Yanvar hadisələrindən sonra Bakıda və bir sıra rayonlarda tətbiq edilən fövqəladə vəziyyət rejimi məhz bu dövrdə naxçıvanlıların torpaqlarımızın qorunması uğrunda rəşadətli mübarizəsi nəticəsində muxtar respublikada tətbiq oluna bilmədi. Bu dövrdə Naxçıvanda baş verən hadisələri ulu öndər Heydər Əliyev belə dəyərləndirmişdir: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi".***

20 Yanvar faciəsinə ilk siyasi qiymət ulu öndərimiz tərəfindən verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderimiz tərəfindən hazırlanan və onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Qərarda deyilirdi: ***"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətlərin iştirakçısı olaola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır".*** Bu tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında Milli Matəm Günü kimi qeyd olunması da öz əksini tapmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur.

Təəssüflər olsun ki, nə ozamankı iqtidar, nə də sonradan hakimiyyətə gələn AXC-Müsavat cütlüyü faciəyə siyasi qiymət vermək üçün əməli addımlar atmadılar. Həmin dövrdə hadisəyə siyasi-hüquqi qiymət verilməsi üçün lazımi işlər görmək mümkün idi. Hakimiyyətdə təmsil olunan şəxslərin yarıtmaz fəaliyyətləri, cəsarətsizliyi nəticəsində qanlı terror aktını törədənlərin istintaqının aparılması istiqamətində heç bir tədbir görülməmişdir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ümummilli liderimizin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə baş vermişdir.

Azərbaycan həqiqətlərinin dünyaya olduğu kimi çatdırılması üçün bütün imkanlardan istifadə edən cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, həmin müdhiş gecədə əlil olanların sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir. Dövlət başçısının "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2006-cı il 19 yanvar, "1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2011-ci il 19 yanvar tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır. Bu qayğının davamı olaraq ölkə başçısının 2016-cı il 16 yanvar tarixli fərmanı ilə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılmışdır. Ölkəmizin paytaxtı Bakı şəhərinin Yasamal rayonundakı "20 Yanvar" dairəsində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu gün müstəqil Azərbaycan dövlətinin tarixinə 20 Yanvar faciəsi xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazılmışdır.

*Əsrlər keçsə də, 20 Yanvar faciəsi heç vaxt yaddan çıxmayacaq, dönə-dönə xatırlanacaqdır. Şəhidlərimizin qanının hədər axmadığı, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, qüdrətli Azərbaycanın bünövrəsinin qoyulduğunu gələcək nəsillər də böyük ehtiramla xatırlayacaqlar.*

**"Şərq qapısı"**

## Torpaq uğrunda ölən varsa, Vətəndir

*Ötən əsrin 80-ci illərinin sonlarında bu oğuz yurdunun üstünü qara buludlar aldı. O buludların gətirdiyi faciələr bu torpağı qanla boyadı. 14 dəfə erməni hücumuna məruz qalan, 108 igid eloğlumuzun şəhidlik zirvəsinə ucaldığı Sədərəyə ermənilər 300-ə yaxın top mərmisi atdılar, 500-ə yaxın evi, məktəb binalarını, ictimai-inzibati binaları, sosial obyektləri dağıtdılar.*

Sədərəyin tarixi taleyinə erməni adlı mənfur düşmənlə qonşuluq qisməti yazılıb. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizli, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr bu sərhəd bölgəsinin sakinlərinin də sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Atababa əmanəti olan bu oğuz yurdunun qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Sədərəklə birgə Naxçıvan da ayağa qalxdı. Ölkəmizin bəzi bölgələrindən də bura könüllülər köməyə gəldilər. O ağır illərdə Sədərək itkilər versə də, qəhrəmanlıqla qorundu, "Torpaq uğrunda ölən varsa, Vətəndir", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun" amalı ilə ölümün gözünə dik baxdı eloğlularımız. Bu mücadilədə sağlamlığını itirən, öz ev-eşiyinə qazi kimi qayıdanlar da az olmadı. Ona görə də, mənim düşüncəmdə, ölkəmizin müqəddəs yurd yerlərindən biridir Sədərək. O illər sədərəklilərin yaddaşında əbədi yaşadığı kimi, rayonun Tarix-Diyarşünaslıq Muzeyində də yaşadılır.

...Muzeydə Sədərəyin qəhrəmanlıq tarixini bir daha xatırladım. Sədərək kənd 2 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivi muzeyi ziyarətə gəlmişdi. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi İsmayıl İsmayılbəyli də həmin dövrdə döyüş meydanına atılaraq doğulub boya-başa çatdığı torpağın müdafiəsinə qalxıb. Onunla muzeydə yaradılmış "Sədərək Naxçıvanın qeyrət qalasıdır" adlı guşənin qarşısında dayanmışıq. Bu qalanın o illərdəki tarixini qəzet, jurnal yazıları, fotoşəkillər muzeyi ziyarətə gələnlərə danışır. İsmayıl müəllim deyir ki, 1990-cı ilin yanvar ayında sovet ordusu Bakıya daxil olmamışdan 8 saat əvvəl ermənilər Sədərəyə hücum etdilər. O gün 8 şəhid verildi. Onlardan ikisi Malik və Elvin Nəsirov qardaşları idi. Uşaqların atası Tofiq Nəsirov onda Qaraburunda erməni hücumlarının qarşısını almaq üçün yaradılmış könüllülər dəstəsində vuruşurdu. Dəstənin rəhbəri Vəli Kərimov bu xəbəri uşaqların atasına olduğu kimi çatdıra bilməyəcəyini düşünüb Tofiqi kömək gətirmək adı ilə Sədərəyə yolladı. Bu gün minnətdarlıqla xatırlanan könüllülər içərisində dünyasını dəyişənlər də, elə o ölüm-dirim mübarizəsində şəhidlik zirvəsinə ucalanlar da var. İlk köməyə Ordubad və Şərur rayonlarından 40 könüllü gəldi. Döyüşlərə atılanlar sırasında polislər də böyük şücaət göstərdilər. Onlara polis kapitanı Məhərrəm Seyidov başçılıq edirdi. Sonralar Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən Məhərrəm Seyidov öz cəsurluğu ilə onlara bir nümunə gücündə idi. Döyüşlər daha çox şərab zavodunun arxasında yerləşən mebel sexinin yaxınlığında gedirdi. Qızıldaşda ermənilər 14 yerdə top qoymuşdular. Hava yolu məsafəsi 14 kilometr olan Qızıldaşdan Sədərəyə atılan top səsləri getdikcə gücləndi. Bizimkilər 2 ədəd TOZ-8, 2 ədəd pulemyot, 4 ədəd ov silahı ilə ermənilərin qarşısını alırdılar. Sədərək uğrunda gedən döyüşlərdə vuruşan həmyerlilərimiz bir həqiqəti dərindən dərk edirdilər ki, məqsəd bütövlükdə Naxçıvan Muxtar Respublikasını almaqdır.

Ardı 3-cü səhifədə

Lakin erməni vandalizminin bu arzusu ürəyində qaldı. Ürəyi vətən eşqilə döyünən soydaşlarımız bu qədim yurd yerinin bir qarış torpağını da onlara vermədi.

O illəri xatırlayanda ulu öndərin sözləri yada düşür: "Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub".

... Muzeydəki "Vətən üçün yaşayıb, Vətən üçün ölənlər heç vaxt unudulmurlar" adlı guşənin qarşısında ayaq saxlayıram. Burada şəhidlik zirvəsinə ucalanların şəkillərinə baxıram. Baxışlar dil açıb danışır. Həmin baxışlarda sabaha böyük ümidlər var. Bu ümidləri bugünkü gənclik doğrultmalıdır. Muzeyin direktoru Sərxan Abbaslı deyir ki, rayonun ümumtəhsil məktəblərinin şagirdləri, müəllimlər tez-tez muzeyə gəlirlər, şəhidlərimizin, bu gün yaşayan müharibə veteranlarının keçdikləri ömür yolları ilə tanış olurlar. Rayon Mədəniyyət və Turizm Şöbəsi o günlərin canlı şahidləri ilə tez-tez görüşlər təşkil edir. Belə görüşlər sədərəkli gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, dövlətçiliyimizə sədaqət hislərinin gücləndirilməsində mühüm rol oynayır.

Sədərək kənd 2 nömrəli tam orta məktəbin müəllimi Novruz Rəhimovla da həmsöhbət oluram. Öyrənirəm ki, Novruz müəllim Sədərək döyüşləri başlanan ilk gündən öndə vuruşanlardan olub. O deyir ki, Sədərək hadisələrini izləmiş bir jurnalist kənddə bəzi həyətlərdən tüstü qalxdığını görüb. Fikirləşib ki, müharibənin qanunudur, yəqin əks tərəfdən atılan silahlar düşdüyü yeri yandırır. Əsl həqiqətdə isə o vaxt Sədərəkdə qadınlar səngərdə döyüşən igid oğullarımıza təndir çörəyi bişirirdilər. Bu, insanların torpağa bağlılığının ən yüksək nümunəsidir. Yaxşı ki bugünkü gənclərin bu ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır.

Müsahibim bildirir ki, 1993-cü il avqust ayının 13-də axırıncı döyüşdə ermənilər Qeyrət qalasını qoruyan qeyrətli oğullara bata bilməyəcəklərini yəqin edərək geri çəkiliblər. Sədərək belə qorunub. Bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Bu məqamda istər-istəməz ulu Dədə Qorqudun aforizmə çevrilmiş sözlərini xatırlayırsan: "Torpağı qorumursansa, əkib-becərməyinə, əkib-becərmirsənsə, qorumağına dəyməz". Sədərəkdə torpaq həm qorunur, həm də əkilib-becərilir.

Digər bir guşə "Nəsillər dəyişəcək, ancaq şəhidlərin xatirəsi əbədi yaşayacaq" adlanır. Novruz müəllim deyir ki, o vaxt səngərə çevrilən Əyyub mağarası, Cin təndiri, Yetimlər, Həsənqulu bağı, Qaraağac, Qurdbaba, Nadirin düzü kimi ərazilərdə döyüşən sədərəklilərin güc aldıqları yeganə qüvvə ulu öndərimiz Heydər Əliyev idi. Ümummilli liderimizin həmin illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Bu gündən sabaha ümidləri olmayan naxçıvanlılar da dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inandılar.

* * *

Muzeydə gördüklərimin, müəllim və şagirdlərlə söhbətlərin yaratdığı təəssüratlarla oradan ayrılıram. Rayonun məktəblərində, məktəbdənkənar təhsil müəssisələrində, mədəniyyət ocaqlarında 20 Yanvar faciəsinin ildönümü ərəfəsində həyata keçirilən tədbirlərlə tanış olmaq üçün həmin ünvanlara üz tuturam.

Sədərək kəndində fəaliyyət göstərən 1 və 2 nömrəli tam orta məktəblərin binaları son illərin yeni quruculuq ünvanlarındandır. Sərhəd bölgəsinin simasına xüsusi yaraşıq verən bu binalar, həmçinin digər kompleks quruculuq tədbirləri Sədərəkdə təmin olunmuş qaynar həyatdan, muxtar respublikanın sosial-iqtisadi inkişafından soraq verməklə bərabər, həm də bütün bunlar bir addımlıqda yaşayan düşmənə gözdağıdır. Bu gün həmin məktəblərdə təhsil alan uşaq, yeniyetmə və gənclərin, lazım gələrsə, ata-babalarının yolu ilə gedəcəklərinə heç bir şübhə yoxdur. Bu barədə söhbət edən 2 nömrəli məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Vüsalə Əliyeva deyir ki, bəhs olunan hadisələr başlayanda 9 yaşım var idi. O illəri uşaq kimi xatırlayıram. Və bu gün dərs dediyim şagirdlərə aşılamağa çalışıram ki, bizim mübarizəmiz haqq işidir. Haqq işi isə həmişə qalib gəlib. Sədərək hadisələri ilə bağlı dərs prosesində, məktəbdənkənar və sinifdənxaric məşğələlərdə söhbətlər aparırıq, inşa yazı və rəsm müsabiqələri keçiririk. Onu da qeyd edim ki, aidiyyəti fənlərin proqramlarında da bu mövzuya kifayət qədər yer ayrılıb. Hansı fənni tədris etməsindən asılı olmayaraq, bu gün məktəbin bütün müəllimləri bu işdə fəallıq göstərirlər. Odur ki, Sədərəyin məktəbyaşlı ən kiçik şagirdindən tutmuş yuxarı sinif şagirdlərinə qədər hamı Sədərək döyüşlərində şəhidlik zirvəsinə yüksələnlər haqqında ətraflı məlumatlara malikdir.

* * *

Sədərəyə gəlmişkən, buradakı hərbi hissədə də olduq. Zabitlərdən Elşən Həsənov, Füzuli Əhmədov əsgərlər üçün yaradılmış şəraitlə bizi tanış etdilər. Burada əsgərlərlə söhbətləşdik. Əsgər Nicat Təvəkkülzadə bildirdi ki, Azərbaycanın hər qarış torpağı hər bir azərbaycanlı üçün ata-baba mirasıdır. Heç nə ilə əvəz olunmayan ən qiymətli sərvətdir. Onu qorumaq bizim ən şərəfli borcumuzdur. Torpağı qorumaq üçün güclü ordumuz var. Ata-babalarımızın torpaqlarımız uğrunda apardıqları mübarizə bizim üçün bir təcrübədir. Bu gün Azərbaycan Ordusunda xidməti vəzifəsini yerinə yetirən hər bir əsgər işğal altında olan torpaqlarımızı geri almağa hazırdır.

Zabit və əsgərlərlə söhbətlərdə bir məqam xüsusi vurğulandı: bu gün Milli Ordumuz elə bir gücə malikdir ki, bunu düşmənlər də yaxşı bilirlər. Və onlar bu gücün qabağında heç nə edə bilməyəcəklərini yaxşı dərk edirlər. Artıq düşmən ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq bu gün Sədərəyə bir mərmi də ata bilməz. Sədərəyi və ümumilikdə, Naxçıvanı güclü Azərbaycan Ordusu qoruyur.

**Muxtar MƏMMƏDOV**

## Qüdrətli Azərbaycan Ordusu ölkəmizin qarantıdır

***Ordu hər bir ölkənin müstəqilliyinin təminatçısı olmaqla bərabər, həm də dövlətlərin hərtərəfli inkişafının qarantıdır. Müasir dünyada hərbi münaqişələrin artdığı bir zamanda, "ədalətin gücünün yanında olması" prinsipinin daha işlək olduğu bir dövrdə ölkəmizin təhlükəsizliyinin təmin edilməsi hər keçən gün öz əhəmiyyətini daha da artırır. 20 ildən artıqdır ki, müharibə vəziyyətində olan Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına dünya dövlətlərinin ikili standartlarla yanaşması istənilən halda Silahlı Qüvvələrimizin gücünün artırılmasını zəruri edir.***





Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğuna bu gün dövlətimiz tərəfindən göstərilən hərtərəfli qayğı bu prosesin yeni mərhələyə qədəm qoymasına şərait yaratmaqla yanaşı, ölkəmizin regionda nüfuzunun artmasına da öz təsirini göstərib. Hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, ordu quruculuğu prosesində ölkə ərazilərinin geostrateji mövqeyi mühüm rol oynayır. Çünki mühüm coğrafi ərazilər təkcə iqtisadi-siyasi deyil, həm də hərbi-strateji əhəmiyyətinə görə seçilir. Buna görə də sülh və müharibə şəraitində ölkənin hava, dəniz və quru sərhədlərinin etibarlı qorunması aidiyyəti ərazilərdə müvafiq qoşun birləşmələrinin dislokasiyasından və döyüş hazırlığından birbaşa asılıdır. Məhz bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsində görülən işlər bir çox əhəmiyyətli tərəfləri ilə diqqət çəkir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası coğrafi cəhətdən ölkənin əsas torpaqlarından ayrı düşüb. Bu tarixi ədalətsizliyin acı nəticələri ilə Naxçıvan keçən əsrin sonlarında çox qarşılaşıb. Ancaq ulu öndər Heydər Əliyevin ötən əsrin doxsanıncı illərinin əvvəllərində Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu qədim diyarın qorunub saxlanılmasında böyük rol oynayıb. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda ilk milli ordu hissələrinin yaradılmasına buradan başlayıb. Məhz həmin dövrdən başlayaraq muxtar respublikada ordu quruculuğu bir çox mərhələlərdən keçib və ötən hər il hərbi hissələr daha da təkmilləşdirilib. 2013-cü ilin dekabrında muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən atılan bu tarixi addım Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələyə çevrilib. Qısa müddət ərzində Əlahiddə Ümumqoşun Ordu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olunub, şəxsi heyətin sayı dəfələrlə artırılıb. Bu texnikalara piyada döyüş vasitələrindən tutmuş müasir artilleriya qurğuları və hava hücumundan müdafiə sistemlərinədək müxtəlif növlərdə silahlar daxildir. Güclü maddi-texniki baza muxtar respublikamızın quru sərhədləri ilə bərabər, hava məkanının da mükəmməl mühafizəsinin təmin edilməsinə şərait yaradıb. Eyni zamanda mövcud hərbi hazırlıqlar Əlahiddə Ümumqoşun Ordunun regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyanı həyata keçirməyə imkan verib.

Əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də muxtar respublikada ordu quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilib. Belə ki, hərbi hissələrdə tikinti-quruculuq tədbirləri davam etdirilib, şəxsi heyətin döyüş hazırlığının artırılması istiqamətində müxtəlif təlimlər keçirilib.

Ötən il ən yaddaqalan hadisələrdən biri mayın 12-dən 15-dək muxtar respublikada Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi olub. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən birgə taktiki təlimlər çox mühüm tərəfləri ilə diqqəti cəlb edirdi.

1000-dən artıq şəxsi heyətin, 150-dən çox döyüş və digər texnikaların, 50-yə yaxın artilleriya və reaktiv qurğularının, 4 atəş dəstək vertolyotunun, 6 ədəd zenit-raket qurğusunun iştirak etdiyi təlimlər üç mərhələdə keçirilib. Təlimlərdə birgə əks-hücum əməliyyatlarının təşkili və aparılması, zirehli qrupların düşmənin müdafiə xəttini yarmaqla təyin olunmuş istiqamətdə əlverişli həddi ələ keçirməsi, taktiki-hava desantının düşmən bölmələrinin arxasına atılması və hakim yüksəkliklərin ələ keçirilməsi, hücumda olan qoşunların dəstəyi üzrə hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyətinin öyrənilməsi mövzularında tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib. Təlimlərin keçirilməsində əhəmiyyətli olan həm də bu idi ki, Naxçıvan ordusu bu əməliyyatları NATO-nun ikinci ən böyük gücü sayılan Türkiyə Silahlı Qüvvələrinin müvafiq qoşun növləri ilə birgə keçirirdi.

Bir ay sonra – iyunun 6-da isə muxtar respublikada daha bir taktiki təlimin keçirilməsinə başlandı. Bu dəfə Əlahiddə Ümumqoşun Ordunun gecə şəraitində taktiki hazırlığı diqqət mərkəzində idi. Gecə şəraitində keçirilən təlimə 600-dən çox şəxsi heyət, 110 döyüş və müxtəlif təyinatlı texnikalar, 25 reaktiv və artilleriya qurğusu, 2 döyüş vertolyotu, 4 zenit-raket qurğusu və 4 mühəndis texnikası cəlb olunmuşdu. Təlimin keçirilməsində məqsəd dağlıq ərazidə, istənilən hava və məhdud görmə şəraitində hissə və birləşmələrin döyüş tapşırıqlarını yerinə yetirmək idi. Təlim zamanı tapşırıqların vaxtında və dəqiq icrası, şəxsi heyətin gecə dağlarda fəaliyyəti, silah və döyüş texnikasının gecə vaxtı tətbiqi uğurla həyata keçirildi və təlimin nəticəsi göstərdi ki, Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti dağlarda müxtəlif gecə döyüş əməliyyatlarını həyata keçirməyə qadirdir.

Noyabrın 5-i isə muxtar respublikamızın ucqar dağ silsiləsində yerləşən Soyuq bölgəsində hərbi hissə üçün əsgəri-yaşayış kompleksinin istifadəyə verilməsi ilə yadda qalıb. Dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən hərbi hissədə istifadəyə verilən kompleksdə əsgər və zabitlər üçün yataq otaqları, məişət və ideoloji otaqlar, tibb otağı, mətbəx, yeməkxana, eləcə də komandir heyəti üçün xidməti otaqlar yerləşir. Yataqxanada əsgərlər üçün müasir sosial-məişət şəraiti yaradılıb. Hərbi hissənin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan bina telefon, daimi işıq və istilik sistemi ilə təchiz olunub.

Qeyd etmək lazımdır ki, Soyuq bölgəsi muxtar respublikanın mühüm strateji döyüş postlarındandır. Yüksək dağlıq əraziyə malik bu bölgədə xidmət aparmaq vaxtilə böyük çətinliklər yaradıb. Ancaq buna baxmayaraq, Milli Ordumuzun əsgərləri hər zaman ayıq-sayıqlığı ilə seçilib, düşmən hücumlarının qarşısını mərdliklə alıblar. Hazırda burada xidmət üçün hərtərəfli şəraitin yaradılması ordumuzun imkanlarını daha da genişləndirib. Ümumiyyətlə, bütün döyüş postlarında yaradılmış müasir şərait Əlahiddə Ümumqoşun Orduya düşmənlə üz-üzə təmas xətti boyu nəzarəti əldə saxlamağa imkan verir.

Bəli, sabitlik olmasa, inkişafdan söhbət gedə bilməz. Bu sabitliyin təminatçısı isə ordumuzdur. Bu gün muxtar respublikamızın təhlükəsizliyini öz üzərinə götürmüş Əlahiddə Ümumqoşun Ordu hər keçən gün gücünü daha da artırır. Əlahiddə Ümumqoşun Ordunun yaradılması, bu ordunun indiyədək müxtəlif taktiki təlimlərə cəlb edilməsi düşmən ölkədə narahatlığa qarşılanıb. Nəinki müdafiə olunmaq, düşmənin uyğun ərazilərindəki istənilən tipli obyektlərin anında məhv edilə biləcəyini, həmin ərazilərə nəzarət funksiyasının Azərbaycan əsgərinin əlində olmasını hər halda düşmənlərimiz də bilməmiş deyillər.

Bu gün xalqımız 26 il bundan əvvəl baş vermiş 20 Yanvar faciəsinin növbəti ildönümünü qeyd edir. Həmin faciə ən yeni tariximizdə xalqımızın azadlıq və müstəqillik arzularına qarşı aparılmış mənfur siyasətin nəticəsi idi. Doğrudur, xalqımız bu qanlı tarixi hadisədən qalib olaraq çıxdı – öz müstəqilliyini, azadlığını qazandı. Həmin dövrdə xalqımızı onu qoruyacaq orduya malik deyildi. Əgər o illərdə bugünkü kimi yüksək döyüş hazırlığına malik öz Silahlı Qüvvələrimiz olsaydı, nə 20 Yanvar, nə Xocalı faciələri baş verər, nə də torpaqlarımız işğal oluna bilərdi. Çünki Milli Ordumuz bizim milli ruhumuza zərər verə biləcək istənilən həmlənin qarşısını vaxtında alacaqdı.

***Bu yazıda muxtar respublikada ordu quruculuğu sahəsində yalnız 2015-ci ildə görülən işlərə ümumi nəzər saldıq. Silahlı Qüvvələrimizin muxtar respublikada yerləşən ən böyük hərbi birləşməsi – Əlahiddə Ümumqoşun Ordu yarandığı gündən böyük bir inkişaf yolu keçib. Bu ordu, ümumilikdə isə Azərbaycan Silahlı Qüvvələri bu gün ölkəmizin hər bir bölgəsində sabitliyin və inkişafın davamlı olmasına, bir daha hər hansı bir milli faciənin yaşanmamasına təminat verən böyük GÜCDÜR.***

**Səbuhi HƏSƏNOV**



# Ölümsüzlüyünün ildönümü mübarək olsun, şəhidim!

*– Salam, şəhidim!*

– Salam!

*– Yenə səni ziyarətə gəlmişəm, qərənfili qəbrin üstə düzmüşəm. Bu çiçəkdə 20 Yanvar qırğınının ələmi var, hüznü var. Sənin kimi haqq yolunda ölənlərin əzmi var. Ləçəyində sıralanıb milyonlarla insanların göz yaşı, yarpağında millətimin silinməz qan yaddaşı. Bu çiçəkdə var o günün Fərizə sədaqəti, o çiçəkdən ətir saçır İlhamın məhəbbəti. Bil ki, boynu bükülüb sən şəhid olan gündən, ayrılıb bu torpağın başqa çiçəklərindən.*

– Sağ olun, yad etdiniz, qoşa qərənfilləri qəbrim üstə sərdiniz. Şəhidlik mənim üçün əlçatmaz zirvə idi, Vətən uğrunda ölmək böyük vəzifə idi. Bu səbəbdən qaçmadım ağır tank qarşısından, qorxmadım mən ilanın ağından-qarasından. Titrəmədim ölümün buz kimi nəfəsindən, ürkmədim silahların gurultulu səsindən. Bir gecədə yol aldım şəhidlik zirvəsinə, harayımla səs verdim Vətənimin səsinə. Yağı düşmən "Sən qarşımda alçal, kölə ol" dedi, məndən onun qarşısında diz çökməmi istədi. Əyilmədim, sınmadım mən düşmən qarşısında, ağ oldum, çirklənmədim düşmənin qarasında. Mən o gün şəhid oldum, təki Vətən sağ olsun, al qanım gələcəyə nur saçan çıraq olsun.

*– Dillərə dastan olub böyük mübarizəniz, xalqıma yol göstərib sizin şəhadətiniz. Göstərib ki, dönməyək biz öz haqq yolumuzdan, olsaq da biz bu yolda öz şirin canımızdan. Çətin gündə birləşib od olaq, alov olaq, silahlar qarşısında poladdan sipər olaq. Sizin həyat yolunuz bizə bir nümunədi, atdığınız hər addım qiymətli xəzinədi. Sən şəhid olmusan ki, xalqın görməsin hüzün, şəhidim, bir de görüm, xalqıma varmı sözün?*

– Nigaranam qardaşım, yurdumdan nigaranam. Şuşadan, Kəlbəcərdən, qırılan meşələrdən, kərpic-kərpic daşınan evlərdən nigaranam. Minarəsi uçulmuş gözəl məscidlərimdən, bulağımdan, suyumdan, elimdən nigaranam. Köksündən qan fışqıran torpağımdan, daşımdan, yuvası uçurulmuş bülbülümdən, quşumdan, ağu, zəhər qatılmış aşımdan nigaranam. Doğmaca qardaşından ayrı düşmüş bacıdan, köksüz ağactək olan övladdan nigaranam. De görüm sən, bunların haçan olacaq sonu, nə zaman sonlanacaq məlun düşmən oyunu?

*– Şəhidim, az qalıbdır, bitəcək bu oyunlar, bil ki, azad olacaq yurd-yuvalar, obalar. İllər öncə xalqımın atmağa bir gülləsi, bir mərmisi olmadı. Düşmənə "Dur!" deyəcək topu və topxanası, təyyarəsi olmadı. Ancaq indi xalqımın var silahı, var gücü, var qüdrətli ulusu, bir əmrə müntəzirdir Azərbaycan Ordusu. Sənin məzarın üstə açıram ürəyimi, sənin məzarın üstə qəlbimdə niyyət edib, tuturam diləyimi. Niyyətimsə budur ki, gələn il şad xəbərlə gəlim ziyarətinə. Elə xəbər verim ki... Elə bir söz deyim ki, sərin bir su səpilsin nigaran ürəyinə. Onda tam cəsarətlə deyə biləcəyəm mən, – Ruhun şad olsun, qardaş. Ruhun şad olsun qardaş, məğlub olub düşmənin, azad olub torpağın, yurdun-yuvan, ellərin!..*

– Amin!

*– Amin! Ölümsüzlüyünün iyirmi yeddinci ilində yenə gələcəyəm. Hələlik, şəhidim, hələlik!*

✍ Səbuhi HÜSEYNOV

*Milli qəhrəmanlarımız*

# Vətən üçün doğulanlar ölmürlər

20 yanvar 1990-cı il. Rusiya Federasiyasının Tümen şəhəri. Şəhərdəki yeni yaşayış binalarının tikintisində azərbaycanlılardan ibarət Azərbaycan-Tümen tikinti dəstəsi də var idi. Bakı Baş Tikinti İdarəsinin evtikmə kombinatının üzvlərindən ibarət 300 nəfərlik heyət bura 3 illik müddətə göndərilmişdi. İnşaat dəstəsində çalışan əkiz qardaşlar – Səyavuş və Ramazan öz ədəb-ərkanı, böyük-kiçik yeri bilməsi, çalışqanlıqları ilə digərlərindən daha çox fərqlənirdi. Buna görə də hər kəs onların xətrini çox istəyir, bir çox məsələlərdə bu qardaşlarla, xüsusilə Səyavuşla məsləhətləşirdi.



O gün isə onların anadan olduqları gün idi. Ad günlərini qeyd etmək üçün gündüzdən hazırlıq işləri görülmüş, yaxın dost-tanış axşam açılacaq süfrəyə dəvət olunmuşdu. Hava qaraldıqca kombinatın işçiləri üçün ayrılmış yataqxanada Səyavuşgilin yaşadığı mənzildə dostların da sayı çoxalırdı. Hər kəs bu əkiz qardaşları təbrik edir, onlara öz arzularını çatdırırdı. Ancaq bu zaman Azərbaycandan gələn sarsıdıcı xəbər süfrə başında olan hər kəsi məyus etdi: dünən, yəni yanvarın 19-da gecə saatlarında Bakıya daxil olan sovet hərbi birləşmələri zirehli texnika ilə insanları vəhşicəsinə qətlə yetirmiş, xeyli sayda insan yaralanmışdır. Hər kəs təəccüb içində idi. Mərkəzi televiziya bu haqda səthi məlumatlar versə də, gələn xəbərlər ziddiyyətli idi. Gecəni sübhəcən oyaq qalan soydaşlarımız ertəsi gün Bakıda vəziyyətin çox ağır olduğunu öyrənirlər. Buna görə də Səyavuş və qardaşı ailələri ilə birgə Bakıya geri dönməyi qərara alırlar. Onlara həmyerlilərimizdən də qoşulanlar olur. Bakıya qayıtdıqdan sonra torpaqlarımızın düşmən təhlükəsində olduğunu öz gözləri ilə görən Səyavuş hər an düşməndən intiqam almaq hissi ilə alışıb-yanır.

Az bir müddətdən sonra torpaqlarımızın müdafiəsi məqsədilə könüllülərdən ibarət özünümüdafiə dəstələri yaranacaq və ora ilk qoşulanlardan olan gələcək Milli Qəhrəmanımız Səyavuş Həsənovun bu gün böyük qürur hissi ilə söhbət açacağımız döyüş yolu başlanacaqdı...

1964-cü il yanvarın 20-də Şərur rayonunun Yengicə kəndində Həsən kişinin ailəsində əkiz oğlan uşağı dünyaya göz açır. Adlarını Səyavuş və Ramazan qoyurlar. Həcər ananın mehriban nəvazişi, Həsən kişinin halal zəhməti ilə böyüyən əkizlər kənd tam orta məktəbini 8-ci sinfə qədər oxuduqdan sonra təhsillərini Bakıdakı 54 nömrəli texniki-peşə məktəbində davam etdirirlər...

Onların qardaşı Adil Həsənov deyir ki, Səyavuşgil 20 Yanvar faciəsini eşidən kimi Azərbaycana qayıdırlar. Burada onlara məlum olur ki, imperiya ordusunun Bakıda dinc əhaliyə qarşı qırğın törətməkdə əsl məqsədi xalqımızın azadlıq, müstəqillik duyğularının qarşısına sədd çəkməkdir. Həmin dövrdə ermənilərin öz havadarlarının köməyi ilə torpaqlarımıza aramsız hücumları artıq onu daha da hiddətləndirir. Tezliklə Səyavuş Qarabağa könüllü müdafiə batalyonu yarananda ona ilk qoşulanlardan olur. Qazaxda, Goranboyda, Gədəbəydə mühüm hərbi tapşırıqları yerinə yetirir. Bu rayonlarda yerləşən müxtəlif döyüş məntəqələrində düşmənə sarsıdıcı zərbələr vurur. Xüsusilə Daşaltı, Şuşa, Laçın döyüş əməliyyatlarında yaxından iştirak edir. O, Şuşa-Laçın yolunda bizim hərbi texnikalara və canlı qüvvəyə heç cür irəliləmək imkanı verməyən düşmən piyada döyüş maşınını ekipajı ilə birlikdə məhv edir. Bundan sonra qüvvələrimiz döyüşdə bir sıra nailiyyətlər əldə edirlər. Ancaq bütün bunlara baxmayaraq Şuşa işğal olunur. Şuşadakı müvəffəqiyyətsizlikdən sonra Daxili İşlər Nazirliyinə gedərək polis sıralarına qəbul olunur və birbaşa döyüş bölgəsinə göndərilməyini xahiş edir. Səyavuşun xidmət etdiyi taqım 1992-ci il iyunun 18-də qızğın döyüşlər gedən Ağdərəyə yola düşür. Tezliklə Ağdərədəki Qırmızıkəndin alınması onlara tapşırılır. "UAZ" maşınında kəndə tərəf irəliləyən taqım dörd yol ayrıcında pusquda dayanmış ermənilərin güclü hücum atəşinə məruz qalır. Hər kəs maşından tökülüşüb özünə mövqe seçir. Atışma getdikcə şiddətlənir. Düşmən tankının onlara tərəf gəldiyini görən Səyavuş tank əleyhinə qumbaraatanı işə salır. Elə ilk həmlədə tank məhv edilir. Səyavuş bu döyüşdə təkbaşına 17 erməni quldurunu öldürür. Özü isə sursat qurtardığından açıq meydanda əliyalın yaralı vəziyyətdə qalır. Son nəfəsinədək vuruşan eloğlumuzu düşmən gülləsi yerə sərir. Ancaq onun nəşini oradan çıxarmaq mümkün olmur. Kənd tərəfindən ermənilərə əlavə qüvvə gəldiyindən yoldaşları döyüşə-döyüşə geri çəkilməyə məcbur olurlar. Tərtərli bir əsgərin həmin kəndi yaxşı tanıması sayəsində taqımdakı polislər kənddən çıxa bilirlər. 8 gün sonra – iyulun 3-də Ağdərə boyu döyüşlər milli ordumuzun qələbəsi ilə davam edirdilər. Döyüşçülərimiz yenidən Qırmızıkəndə daxil olurlar və kəndi erməni quldurlarından təmizləyərək dörd yol ayrıcında Səyavuşun nəşini taparaq əvvəl Tərtərə, sonra isə Bakıya gətirərək Şəhidlər xiyabanında dəfn edirlər.

Azərbaycan Respublikası Prezidentinin 21 iyul 1992-ci il tarixli Fərmanı ilə Həsənov Səyavuş Həsən oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilir.

Şərur rayonunun Yengicə kənd tam orta məktəbində gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən Adil Həsənovdan öyrənirik ki, Azərbaycanın Milli Qəhrəmanı Səyavuş Həsənov torpaqlarımız uğrunda şəhid olarkən ikiyaşlı oğlu və bir də üç ay sonra dünyaya gələcək qızı yadigar qalır.

***... 20 Yanvar faciəsi xalqımız tərəfindən milli qürur günü kimi qeyd olunur. Bu gün həm də Azərbaycanda azadlığın doğulduğu gündür. Yüzlərlə qəhrəman övladlarımız həmin gün öz qanları ilə azadlığın Vətənimiz üçün əbədi olacağını yazdılar. Təsadüfdən, yoxsa zərurətdənmi şəhid qəhrəmanımız Səyavuş Həsənov da 20 yanvar tarixində göz açmışdı bu dünyaya. Məhz bu tarix onu uzaq Tümen vilayətindən Azərbaycana gəlməyə məcbur etmiş, yanvar şəhidləri ilə həmrəy olmağa səsləmişdi. Səyavuş bu həmrəyliyi, bu dəyanəti öz məğrur ölümü ilə sübut etdi, Vətən qarşısında borcunu şərəflə yerinə yetirərək şəhid oldu... Şəhidliyin və doğum günün mübarək, Milli Qəhrəman!***

✍ Səbuhi HƏSƏNOV

# 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş yarış

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş gənclər və kişilər arasında kikboksinq üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi və 2 gün davam edən birincilikdə 70-ə yaxın idmançı mübarizə aparıb. Birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, federasiyanın sədr müavini Cavanşir Salayev 20 Yanvar faciəsi haqqında danışıblar.

Birinciliyin reqlamentinə gəlincə, gənclər və kişilər 10 çəki dərəcəsində rinqə çıxıblar. Gənclərin mübarizəsində idmançılar 45, 51, 54, 57 və 67 kiloqram, kişilərin mübarizəsində isə 60, 65, 71, 75 və 81 kiloqram çəki dərəcələrində birincilik uğrunda mübarizə aparıblar.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda daha çox 60 və 65 kiloqramda mübarizə aparan idmançıların döyüşləri maraq kəsb edib. Belə ki, 60 kiloqram çəki dərəcəsində dünya çempionu Nail Hüseynov Mərdan Muradovu məğlub edərək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. 65 kiloqram çəki dərəcəsində isə tamaşaçılar nokautun şahidi olublar. Belə ki, Avropa birinciliyinin qalibi Ruslan Musayev bir neçə beynəlxalq turnirin qalibi olan Samiq Seyidzadə ilə üz-üzə gəlib. S.Seyidzadənin ikinci raunddakı qüvvətli zərbəsi rəqibin nokautu ilə yekunlaşıb. Kişilərin mübarizəsində digər çəki dərəcələrində Sarvan İsayev (71 kiloqram), İbrahim İbrahimli (75 kiloqram) və Mais Quliyev (85 kiloqram) birinciliyin qalibi olublar.

Gənclərin final görüşlərində isə Sənan Əliyev (45 kiloqram), Sahil Cəfərov (51 kiloqram), Rauf Həsənov (54 kiloqram), Murad Hüseynov (57 kiloqram) və Əbülfəz Əliyev (67 kiloqram) rinqi qalib tərk edərək birinciliyin baş mükafatını qazanıblar.

Sonda hər çəki dərəcəsində ilk 3 pilləni tutan idmançılara diplom və medal təqdim olunub.

✍ Ceyhun MƏMMƏDOV

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
TURAL SƏFƏROV

*Ünvan: AZ-7000,*
*Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 49**